# Ermənilər məşhur Memar Sinana da murdar əllərini uzatdılar

**Vaqif Abışov:** *”Memar Sinanın erməni olmasına dair iddialar cəfəngiyyatdan başqa bir şey deyil”*

**Ermənilər dünyanın maddi-mədəni, mənəvi xəzinəsinə qənim kəsilən bir toplum olaraq mövcuddur. Dünyanın ən məşhur memarlıq abidələrindən, tarixi şəhərlərindən tutmuş, dünya çapında tanınan şəxsiyyətlərə qədər iddialarından çəkinməyən ermənilərin bu sərsəm xülyaları sərhəd tanımır.**

Türkiyənin məşhur Dolmabahçe abidəsinə də, Hindistanın dünyaca məşhur olan və türklər tərəfindən inşa edilən Tac Mahal abidəsinə, eləcə də Misir piramidalarına qarşı açıq iddia ortaya qoyan ermənilər indi də Türkiyə memarlığının atası hesab edilən Memar Sinanı erməniləşdirməyə cəhd göstərirlər.

Artıq xeyli müddətdir erməni ideoloqları Memar Sinanı "erməniləşdirmək layihəsi" üzərində baş sındırırlar. Lakin nə qədər cəhd etsələr də, heç bir tarixi sənəd onların xeyrinə hər hansı bir işarə belə göstərmir. Ermənilər bir çox ölkənin qapıları onların üzünə taybatay açıq olan arxivlərində nə qədər eşələnsələr də, Memar Sinanın "erməniliyinə" dair heç bir məlumat əldə edə bilmirlər. Memar Sinanın "erməni" olması iddiasını meydana atan və bununla da erməniləri aldadan Türkiyənin erməni yazar və tarixçilərindən olan Panos Dabağzadır. Sosial şəbəkələrdə yayılan məlumatlara görə, o özünün "Milleti Sadika" adlı kitabında Sinanın erməni, Ağırnasın sakinlərinin də büsbütün erməni olduğunu yazır. Heç bir tarixi sənədə istinad etməyən və tamamilə yalan iddialar üzərində qurulan kitabda vurğulanır ki, Sinan gənclik illərində yeniçəri olub, o, 20 yaşında islamı qəbul edib.

Memar Sinan haqqında mövcud olan məlumatların heç birində onun "erməni" olduğuna dair hər hansı bir eyham belə yoxdur. Böyük Memar Sinan Ağa Osmanlı memarıdır və Memar Sinan türk memarı olub dünyanın ən böyük memarlarından biridir. Məlumatlara görə, Sinanəddin Əbdülmənnan oğlu Yusuf (Memar Sinan) 1489-cu ildə Kayserinin Kesi nahiyəsindəki Ağırnas kəndində doğulub. Onu da qeyd edək ki, bəzi mənbələr onun bir xristian ailəsində dünyaya gəldiyini bildirir. Amma onun erməni ailəsində doğulduğu haqqında heç bir informasiya yoxdur.

Memar Sinan 17 iyul 1588-ci ildə İstanbulda vəfat edib. Ailəsinə və keçirdiyi həyat tərzi ilə bağlı bəzən yetərsiz, bəzən də ziddiyyətli məlumatlar müasiri Sai Mustafa Çələbinin onun dilindən yazdıqlarına, memarbaşı olduğu vaxtlardan qalan yazışmalara, özünün vəqfinə və yazarı bilinməyən mənbə və kitablara dayanmaqdadır.

Mənbələrə görə, Sinan I Səlim (Yavuz) sultan olduqdan sonra başlanan və Rumelidə olduğu kimi, Anadoludan da əsgər toplanmasını irəli sürən yeni bir təbiqata görə 1512-ci ildə İstanbula gətirildi. Orduya əsgər hazırlayan Əcəmi Oğlanlar Ocağına verilib, 1514-cü ildə Çaldıran döyüşündə, 1516-1520-ci illər arasında da Misir səfərlərində iştirak edib. İstanbula dönüncə Yeniçəri Ocağına qəbul olunub.

1-ci Süleyman Qanuni dövründə 1521-ci ildə Belqrad, 1522-ci ildə Rodos səfərlərinə qatılmış və zabit rütbəsi alıb. 1526-cı ildə qatıldığı Mohaç səfərindən sonra baş mühəndis olur. 1529-cu ildə Vyana, 1529-1532-ci illər arasında Almaniya, 1532-1535-ci illər arasında da İraq, Bağdad, Təbriz səfərlərində iştirak edib. Bu son səfər ərəfəsində Van gölündən keçəcək olan üç gəminin təmir işlərini müvəffəqiyyətlə yerinə yetirməsinə görə ona "haseki" ünvanı verilib.

536-cı ildə Pulya səfərlərinə qatılıb. 1538-ci ildə iştirak etdiyi Karabuğdan (Moldova) səfəri ərəfəsində Prut çayı üstündə inşa etdiyi bir körpü ilə hamının diqqətini öz üzərinə çəkir. Bir il sonra Əcəm Əlinin ölümündən sonra onun yerinə keçir, sarayın baş memarı olur. Ömrünün axırına qədər bu vəzifədə qalır.

Memar Sinan Osmanlı imperatorluğunun ən güclü olduğu dövrdə yaşayıb. I Süleyman (Qanuni), II Səlim və III Murad kimi üç böyük sultan zamanında baş memar olmuş, imperatorluğunun gücünü simvolizə edən şah əsərlərinin layihələşdirilib tikilməsində əsas rol oynayıb. Sənətdə təsiri ölümündən sonra da qalmış, hər zaman hörmətlə qarşılanıb.

1982-ci ildə İstanbuldakı Dövlət İncəsənət Akademiyasının bazasında qurulan yeni universitetə onun adı verilib. Sinanın bir memar kimi yetişməsi ilə əlaqədar kifayət qədər məlumat olmasa da, dülgərliyi Əcəmi oğlanlar ocağında öyrəndiyi ehtimal edilir. Əcəmi oğlanlar başqa işlərlə bərabər memarlıq işləri ilə də vəzifələndirilirdilər. Sinan daha sonra orduda struktur ehtiyaclarını ödəyən vəzifələrdə işləmiş, buradakı işlərilə önə çıxıb. İstər orduda usta-şagird münasibətləri içində həyata keçirilən tikinti və təmir işləri, gərəksə orduyla getdiyi yerlərdə müşahidə etdiyi binalar Memar Sinanın yetişməsində əsas rol oynayıb.

Müxtəlif mənbələrə görə, Sinan 84 cami (böyük məscid), 52 məscid, 7 məktəb və darulqurra, 22 türbə, 17 imarət, 3 daruşşəfa, 7 su kəməri, 8 körpü, 20 karvansaray, 35 köşk (bağça) və saray, 6 anbar və yeraltı anbar, 48 hamam olmaqla, adı çəkilməyənlərlə birlikdə üç yüz əllidən çox memarlıq əsəri yaradıb.

Mənbələrdə qeyd edilir ki, əlli ilə yaxın bir zaman Osmanlı imperatorluğunun baş memarı olmasına baxmayaraq, bütün bu abidələrin hamısını onun layihələndirib tətbiq etməsini söyləmək çətindir. Çoxu İstanbulda olmaqla yanaşı, imperatorluğun hər tərəfində yerləşən bu abidələrin bir qisminin tələbələri, yaxud da ona tabe olan memarlar qrupunun inşa etməsi də mümkün ola bilər. Bunların arasında təmir edilənlər də var. Bu cür rəqəmlər həm də Sinana olan hörməti göstərir. Onun əsl əhəmiyyəti abidələrində həyata keçirdiyi təcrübə və gətirdiyi yeniliklərlə Osmanlı-türk memarlığını klassik zirvəsinə qaldırmasıdır.

Sinan baş memar olmasından öncə də qeyri-hərbi tikililər layihələndirib və tikib. Amma ilk əhəmiyyətli memarlıq əsəri İstanbuldakı Şahzadə (Mehmed) Camisidir. Özünün şagirdlik dövrü əsəri olaraq adlandırdığı bu cami dörd ayağın daşıdığı və dörd yarım günbəzin dəstəklədiyi bir günbəz ilə örtülüdür. Xarici bər-bəzəyin təsiri azaldılmış, içəridə isə daha işıqlı bir məkan yaratmaq yolu tutulub. Bundan sonra tikdiyi Üsküdardakı Mehrimah Sultan Camisində isə yarımçıq günbəzlərin sayı üçə endirilərək daha rahat bir daxili məkan ortaya qoyulub. Osmanlı-türk memarlığının ən mühüm abidələrindən biri Süleymaniyyə Camisi və külliyyəsidir. Sinan tələbəlik dövrü abidəsi adlandırdığı bu camidə İstanbuldakı Bəyazid Camisində istifadə olunan daşıyıcı sistemi yeniləmiş, dörd ayaq üstünə oturan günbəzi giriş-mehrab istiqamətindəki yarım günbəzlərlə dəstəkləyib.

Bu, Ayasofya ilə ortaya qoyulan strukturun onun tərəfindən bir daha ələ alınmasıdır. Süleymaniyyə, darulqurrası, daruşşəfası, hamamı, imarəti, altı mədrəsəsi, dükanları və Qanuni Süleyman ilə Xürrəm sultanın türbələrilə böyük bir sahəyə yayılmış şəhərsayağı bir tərtibatdır və türklərin dini tikililərdə ictimai xidməti də yerləşdirmələrinin bariz nümunəsidir.



*”Heç bir tarixi sənəddə bu dahi memarın erməni olduğuna dair bir işarə belə yoxdur”*

Tarixçilər qeyd edirlər ki, Memar Sinan erməni olmayıb. O özü 1539-cu ildə Çələbi Lütfi Paşaya dediyi sözlərlə milli və dini kimliyini açıqlayıb: "Əslim rum, özüm müsəlman, ruhum türk, devri-şüurum osmanlı, qüdüssatım səlcuqlu, nübuvvatım hilaldır, əlhəmdüllah!". Hesab edirik ki, bu, ermənilər üçün çox kəsin bir cavabdır.

Azərbaycan Milli Elmlər Akademiyasının A.Bakıxanov adına Tarix İnstitutunun aparıcı elmi işçisi, tarix elmləri dokroru Vaqif Abışov "Bakı-Xəbər"ə bildirdi ki, ermənilər bu cəfəng fikri ortaya atmaqla özlərinin saxtakar olduğunu bir daha aydın şəkildə göstərirlər. "Memar Sinanın erməni olmasına dair iddialar cəfəngiyyatdan başqa bir şey deyil. Heç bir tarixi sənəddə bu dahi memarın erməni olduğuna dair bir işarə belə yoxdur. O, müsəlman olduğunu və türk düşüncəsinə xidmət etdiyini özü qeyd edib, bu barədə tarixi mənbələrdə konkret məlumat var. Hansısa bir erməni yazıçısının uydurma, cəfəngiyyat dolu kitabı Memar Sinanı erməniləşdirə bilməz. Bütün dünya bilir ki, ermənilər özlərinə aid olmayan mədəniyyətləri, şəxsiyyətləri, eləcə də tarixi abidələri mənimsəməyə cəhd edirlər. Memar Sinan erməni olsaydı, bu barədə tarixi mənbələrdə hər hansı bir informasiya olardı. Ancaq belə bir məlumat yoxdur. Tac Mahalı "erməni abidəsi" kimi təqdim edən ermənilərdən hər şey gözləmək olar. Çünki onlar həmişə yalan danışırlar. Azərbaycan musiqisini, nağıl və dastanlarını oğurlayan, torpaqlarımızı işğal edən ermənilər başqa xalqların da mədəniyyətinə qənim kəsiliblər" - deyə V.Abışov qeyd etdi.

***İradə SARIYEVA***